# Şəhadətin ildönümü

**2022-ci il 12-13 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribatın qarşısını alarkən şəhid olanlardan biri də leytenant Vüsal Məlikovdur.**




Bu günlərdə şəhidin il mərasimi keçirilib. Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, Milli Məclisin deputatı İqbal Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, müharibə veteranları və ictimaiyyət nümayəndələri Vüsal Məlikovun məzarını ziyarət ediblər.

V.Məlikov 2000-ci il yanvarın 1-də Lerik rayonunun Almu kəndində anadan olub. Onun qəhrəmanlıq yolu gənc nəsillər üçün nümunədir.

**Zəfər Orucoğlu**

Mədəniyyət .- 2023.- 20 sentyabr.- S.4.